**«Dövlət qeydiyyatına alınmışdır»**

Azərbaycan Respublikası Vergilər Nazirliyi
yanında Bakı Vergilər Departamentinin
Kommersiya hüquqi şəxslərin
dövlət qeydiyyatı idarəsi tərəfindən

Qeydiyyat № 2001042351

«29» sentyabr 2016-cı il

İdarə rəisi: S.Ə.Seyidəhmədli ____________

**«Təsdiq edilmişdir»**

"Xalq Kapital" Məhdud Məsuliyyətli Cəmiyyətinin
yeganə iştirakçısının
15.02.2016-cı il tarixli 01 №-li Qərarı ilə

ASC "Xalq" Bankının
İdarə Heyətinin sədri

____________ E.M.Ağayev

# "XALQ KAPİTAL investisiya şirkəti" QAPALI SƏHMDAR CƏMİYYƏTİNİN

# NİZAMNAMƏSİ

**BAKI –2016**

# I. ÜMUMİ MÜDDƏALAR

1.1. Bu Nizamnamə Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, qüvvədə olan digər qanunlarına və normativ hüquqi aktlarına uyğun olaraq yaradılmış kommersiya təşkilatı olan "Xalq Kapital investisiya şirkəti" Qapalı Səhmdar Cəmiyyətinin (bundan sonra – «Cəmiyyət» adlandırılacaq) hüquqi vəziyyətini, təşkili və fəaliyyət qaydasını müəyyən edir.

1.2. Cəmiyyətin tam firma adı:

Azərbaycan dilində - **"Xalq Kapital investisiya şirkəti" Qapalı Səhmdar Cəmiyyəti**

İngilis dilində - **"Xalq Capital investment company" Closed Joint-Stock Company**

1.3. Cəmiyyətin qısaldılmış adı:

Azərbaycan dilində – **"Xalq Kapital investisiya şirkəti" QSC**

İngilis dilində - **"Xalq Capital investment company" CJSC**

1.4. Cəmiyyət 17.08.2007-ci il tarixdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsi tərəfindən dövlət qeydiyyatına (hazırki dövlət qeydiyyat nömrəsi (VÖEN): 2001072351) alınmış "Xalq Kapital" Məhdud Məsuliyyətli Cəmiyyətinin (bundan sonra – ""Xalq Kapital" MMC") yenidən təşkili (çevrilmə) nəticəsində təsis edilmişdir və həmin hüquqi şəxsin hüquqi varisidir.

1.5. Cəmiyyət Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı andan hüquqi şəxs statusunu əldə edir.

1.6. Cəmiyyətin hüquqi şəxs kimi mülkiyyətində ayrıca əmlakı vardır, o, öz adından əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək, vəzifələr daşımaq, qanunvericiliklə yol verilən istənilən əqdləri öz adından bağlamaq, məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış etmək hüququna malikdir. Cəmiyyətin müstəqil balansı vardır.

1.7. Cəmiyyət fəaliyyət müddəti məhdudlaşdırılmadan yaradılır.

1.8. Cəmiyyət Azərbaycan Respublikasının ərazisində və xaricdə öz fəaliyyətini bu Nizamnaməyə və qüvvədə olan qanunvericiliyə müvafiq olaraq həyata keçirir.

1.9. Cəmiyyət dövlət qeydiyyatına alındığı andan mülki hüquqlara malikdir və mülki vəzifələr daşıyır. Cəmiyyətin hüquq qabiliyyətinə onun ləğvinin başa çatdığı an xitam verilir.

1.10. Cəmiyyət qiymətli kağızlar bazarı haqqında qanunvericiliklə nəzərdə tutulmuş istənilən investisiya xidmətlərinin göstərilməsini həyata keçirmək üçün zəruri mülki hüquqlara malikdir. Qiymətli kağızlar bazarı haqqında qanunvericiliklə nəzərdə tutulmuş investisiya xidmətləri qanunvericiliyin tələblərinə müvafiq olaraq Cəmiyyətin müstəsna fəaliyyət predmetini təşkil edir və bu xidmətlərin göstərilməsi üzrə fəaliyyət Cəmiyyət tərəfindən yalnız qanunvericilikdə nəzərdə tutulmuş qaydada müvafiq razılıqların (lisenziyaların) alınmasından sonra həyata keçirilir.

1.11. Cəmiyyət öz öhdəliklərinə görə yalnız qüvvədə olan qanunvericiliyə görə üzərinə tələb yönəldilə bilən öz əmlakı hüdudlarında məsuliyyət daşıyır. Cəmiyyət dövlətin və onun orqanlarının, dövlət və onun orqanları isə Cəmiyyətin öhdəliklərinə görə məsuliyyət daşımır.

Cəmiyyət səhmdarların, səhmdarlar isə Cəmiyyətin öhdəliklərinə görə məsuliyyət daşımır və Cəmiyyətin fəaliyyəti ilə bağlı zərərə görə onlara məxsus səhmlərin dəyəri həddində risk daşıyırlar.

1.12. Cəmiyyət qanunvericiliklə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasında və onun hüdudlarından kənarda milli və xarici valyutada bank hesabları (cari və digər hesabları) açmaq hüququna malikdir.

1.13. Cəmiyyət qanunvericiliyə müvafiq qaydada Azərbaycan Respublikasının ərazisində və xaricdə törəmə müəssisələri, filialları yaratmaq və nümayəndəlikləri açmaq hüququna malikdir. Cəmiyyətin filialları və nümayəndəlikləri hüquqi şəxs deyil və Cəmiyyətin hesabına əsas və dövriyyə vəsaitləri ilə təmin edilir.

Filiallar və nümayəndəliklər Cəmiyyətin adından fəaliyyət göstərirlər. Cəmiyyət öz filiallarının və nümayəndəliklərinin fəaliyyətinə görə məsuliyyət daşıyır. Filialların və nümayəndəliklərin rəhbərləri Cəmiyyət tərəfindən verilmiş etibarnamələr əsasında fəaliyyət göstərirlər.

1.14. Cəmiyyətin illik maliyyə hesabatları üçün hesabat dövrü hər il yanvar ayının 1-dən başlanır və dekabr ayının 31-də (daxil olmaqla) bitir. Cəmiyyətin birinci hesabat dövrü - cəmiyyət cari ilin oktyabr ayının 1-dək dövlət qeydiyyatına alındığı təqdirdə dövlət qeydiyyatına alındığı tarixdən başlayaraq həmin ilin dekabr ayının 31-də (daxil olmaqla) bitir, - cəmiyyət cari ilin oktyabr ayının 1-dən sonra dövlət qeydiyyatına alındığı təqdirdə isə dövlət qeydiyyatına alındığı tarixdən başlayaraq növbəti ilin dekabr ayının 31-də (daxil olmaqla) bitir.

1.15. Cəmiyyətdə sənədlərin saxlanılması, arxivləşdirilməsi və müvafiq dövlət orqanlarına təqdim edilməsi qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilir.

1.16. Cəmiyyətin Azərbaycan və İngilis dillərində tam firma adını özündə əks etdirən və olduğu yeri göstərilən girdə möhürü vardır.

Cəmiyyətin, üzərində onun adı göstərilən ştampları və blankları, özünün xidmət (əmtəə) nişanı və digər fərqləndirici vasitələri vardır.

1.17. Cəmiyyətin hüquqi ünvanı: Azərbaycan Respublikası, Bakı şəhəri, 494-cü məhəllə, İnşaatçılar prospekti, 22L.

## II. CƏMİYYƏTİN FƏALİYYƏTİNİN ƏSAS MƏQSƏDİ VƏ PREDMETİ

2.1. Cəmiyyətin fəaliyyətinin əsas məqsədi mənfəət əldə edilməsindən ibarətdir.

2.2. Bu Nizamnamənin 2.1-ci bəndində nəzərdə tulumuş məqsədə uyğun olaraq Cəmiyyətin fəaliyyətinin predmetini bu Nizamnamənin 2.3-cü və 2.4-cü bəndlərində göstərilmiş əsas və yardımçı investisiya xidmətlərinin göstərilməsi təşkil edir.

2.3. Cəmiyyət aşağıdakı əsas investisiya xidmətlərini göstərir:

2.3.1. qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə aparılan əməliyyatlarla bağlı müştəri sifarişlərinin qəbul və icra edilməsi;

2.3.2. fərdi investorların portfelinin idarə edilməsi;

2.3.3. investisiya məsləhətlərinin verilməsi;

2.3.4. qiymətli kağızların öhdəlik götürmədən yerləşdirilməsi və anderraytinqi;

2.3.5. qiymətli kağızların öhdəlik götürməklə yerləşdirilməsi və anderraytinqi;

2.3.6. mərkəzi depozitarın və fond birjasının üzvü qismində öz hesabına qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə əməliyyatlar aparılması;

2.3.7. marja ticarəti.

2.4. Cəmiyyət aşağıdakı yardımçı investisiya xidmətlərini göstərir:

2.4.1. müştərisinin qiymətli kağızlar hesablarının idarə edilməsi, o cümlədən qiymətli kağızların və ya törəmə maliyyə alətlərinin öhdəliklərlə yüklənməsi ilə bağlı əməliyyatların həyata keçirilməsi;

2.4.2. investorlara qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə həyata keçirdiyi əqdlərin bağlanması üçün kredit və ya digər formada borc verilməsi;

2.4.3. qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə bağlı investisiya tədqiqatı və maliyyə təhlilinin aparılması;

2.4.4. təmin edilmiş istiqrazlar üzrə təminatın sərəncamçısı xidmətinin həyata keçirilməsi;

2.4.5. əsas investisiya xidmətlərinin həyata keçirilməsi ilə bağlı xarici valyuta mübadiləsi.

2.5. Cəmiyyətin investisiya xidmətlərinin göstərilməsi sahəsində fəaliyyəti hazırkı Nizamnamədə nəzərdə tutulmuş əsas və yardımçı investisiya xidmətlərinin göstərilməsi ilə məhdudlaşmır. Cəmiyyət məqsədəmüvafiq saydığı təqdirdə qiymətli kağızlar bazarı haqqında qanunvericilikdə nəzərdə tutulmuş digər investisiya xidmətlərini həmin qanunvericiliklə nəzərdə tutulmuş şərtlərlə və qaydada həyata keçirə bilər.

## III. CƏMİYYƏTİN ƏMLAKI VƏ FONDLARI

3.1. Cəmiyyət, səhmdarlar tərəfindən haqqlar şəklində ona verilmiş əmlakın, bu Nizamnaməyə müvafiq olaraq investisiya xidmətlərin göstərilməsindən əldə etdiyi gəlirlərin, habelə qanunvericilikdə nəzərdə tutulmuş digər əsaslarla əldə etdiyi gəlirlərin və əmlakın mülkiyyətçisidir.

3.2. Cəmiyyət büdcəyə vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra xalis mənfəət Cəmiyyətin tam sərəncamında qalır.

Cəmiyyətin fəaliyyəti nəticəsində əldə edilmiş xalis mənfəət Cəmiyyətin Səhmdarlarının ümumi yığıncağı tərəfindən müəyyən edilən qaydada istifadə edilir.

3.3. Cəmiyyətin fəaliyyətinin maliyyə sabitliyini, habelə başqa ehtiyaclarını təmin etmək məqsədi ilə Cəmiyyətin müvafiq idarəetmə orqanlarının qərarı ilə ehtiyat fondu və digər fondlar və ehtiyatlar yaradıla bilər.

Cəmiyyətin hər bir fondunun tərkibi, təyinatı və həcmi, yaradılması mənbələri və istifadə edilməsi qaydaları Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq Cəmiyyətin müvafiq idarəetmə orqanları tərəfindən müəyyən edilir.

3.4. Cəmiyyətin əmlakı Cəmiyyətin fəaliyyəti nəticəsində və Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmayan digər mənbələr hesabına da əmələ gələ bilər.

## IV. CƏMİYYƏTİN NİZAMNAMƏ KAPİTALI

4.1. Cəmiyyətin nizamnamə kapitalı Cəmiyyətin kreditorlarının mənafelərinə təminat verən əmlakının minimum miqdarını müəyyənləşdirir. Cəmiyyətin nizamnamə kapitalı hüquqi varis olduğu "Xalq Kapital" MMC-nin nizamnamə kapitalı hesabına, sonuncunun nizamnamə kapitalında iştirakçısının paylarının 4.2-ci bənddə göstərilmiş adi səhmlərə dəyişdirilməsi yolu ilə formalaşdırılır.

4.2. Cəmiyyətin nizamnamə kapitalı 420 000 (dörd yüz iyirmi min) manat miqdarında müəyyənləşdirilir və hər birinin nominal dəyəri 2 (iki) manat olan 210 000 (iki yüz on min) ədəd adi adlı səhmə bölünür.

Cəmiyyətin bütün səhmləri sənədsiz formada buraxılır.

4.3. Cəmiyyətin nizamnamə kapitalını təşkil edən səhmlər bütünlüklə Cəmiyyətin tək səhmdarı olan - ASC "Xalq" Bankına (Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 23.12.2004-cü il tarixdə dövlət qeydiyyatına alınmışdır, hazırki dövlət qeydiyyat nömrəsi (VÖEN) – 2000296061) məxsusdur.

4.4. Cəmiyyətin nizamnamə kapitalı cəlb edilmiş vəsait hesabına formalaşdırıla bilməz.
4.5. Səhmdarların ümumi yığıncağının qərarına əsasən Cəmiyyətin nizamnamə kapitalı səhmlərin nominal dəyərinin artırılması və ya əlavə səhmlərin buraxılması yolu ilə artırıla bilər.
4.6. Cəmiyyətin nizamnamə kapitalının artırılmasına onun tam ödənilməsindən sonra yol verilir.
4.7. Əlavə səhmlərin yerləşdirilməsi qaydası və müddəti Səhmdarların ümumi yığıncağının nizamnamə kapitalının əlavə səhmlərin buraxılması yolu ilə artırılması haqqında qərarı ilə müəyyən edilir.
Əlavə səhmlərin ödənilməsi qiymətli kağızlar bazarı haqqında qanunvericiliyin tələblərinə müvafiq olaraq yalnız pul vəsaiti ilə həyata keçirilə bilər. Cəmiyyət buraxdığı səhmlərə açıq abunə yazılışı apara bilməz və ya başqa şəkildə onları əldə edilmək üçün şəxslərin qeyri-məhdud dairəsinə təklif edə bilməz.
4.8. Nizamnamə kapitalının səhmlərin nominal dəyərinin artırılması yolu ilə artırılması səhmdarların əlavə haqqların qoyulması ilə yanaşı həmçinin Cəmiyyətin bölüşdürülməmiş mənfəəti hesabına aparıla bilər.
4.9. Səhmdarın Cəmiyyətin səhmlərini ödəmək vəzifəsindən azad edilməsi, o cümlədən Cəmiyyətə qarşı tələblərin əvəzləşdirilməsi yolu ilə azad edilməsi yol verilməzdir.
4.10. Səhmdarların ümumi yığıncağının qərarına əsasən Cəmiyyət səhmlərin nominal dəyərini azaltmaq yolu ilə və ya səhmlərin bir hissəsini satın alıb onların ümumi miqdarını azaltmaq yolu ilə nizamnamə kapitalını azalda bilər.
4.11. Cəmiyyət yalnız o şərtlə nizamnamə kapitalını azalda bilər ki, bunun nəticəsində nizamnamə kapitalının miqdarı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş nizamnamə kapitalının minimum miqdarından az olmasın.
4.12. Cəmiyyətin nizamnamə kapitalının azaldılması haqqında Səhmdarların ümumi yığıncağının qərarı qəbul edildiyi gündən 15 (on beş) təqvim günü müddətində Cəmiyyət kreditorlara bu barədə yazılı surətdə məlumat verməlidir.
4.13. Cəmiyyət tərəfindən səhmlərin satın alınması zamanı səhmlərin ödənilməsi pul vəsaiti və ya digər əmlakla aparıla bilər.
4.14. Əgər ikinci və hər növbəti maliyyə ili başa çatarkən, Cəmiyyətin xalis aktivlərinin dəyəri nizamnamə kapitalından az olarsa, Cəmiyyət öz nizamnamə kapitalının azaldılmasını elan etməli və müəyyənləşdirilmiş qaydada qeydə aldırmalıdır. Əgər cəmiyyətin xalis aktivlərinin dəyəri nizamnamə kapitalının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş minimum miqdarından az olarsa, Cəmiyyət ləğv edilməlidir.

## V. CƏMİYYƏTİN SƏHMLƏRİNİN ƏLDƏ EDİLMƏSİNDƏ ÜSTÜNLÜK HÜQUQUNUN HƏYATA KEÇİRİLMƏSİ QAYDASI VƏ MÜDDƏTLƏRİ

5.1. Cəmiyyətin səhmdarları digər səhmdar(lar)ın satdıqları səhmləri sahib olduqları səhmlərin miqdarına mütənasib surətdə əldə etməkdə üstünlük hüququna malikdirlər.
5.2. Öz səhmlərinin hamısını və ya bir hissəsini üçüncü şəxsə satmaq istəyən Cəmiyyətin səhmdarı bu barədə, səhmlərin qiyməti və digər satış şərtləri göstərilməklə, Cəmiyyətin icra orqanına yazılı bildiriş göndərməlidir.
5.3. Cəmiyyətin icra orqanı bu Nizamnamənin 5.2-ci bəndində göstərilmiş bildirişin alındığı tarixdən 3 (üç) iş günündən gec olmayaraq Cəmiyyətin bütün səhmdarlarını müvafiq əqdin mühüm şərtləri (satılması nəzərdə tutulan səhmlərin sayı, növü, dəyəri, ödəniş şərtləri və.s) və həmin bildirişin daxilolma tarixi barədə yazılı şəkildə məlumatlandırmalıdır.

5.4. Səhmdarlardan heç biri 5.3-cü bənddə nəzərdə tutulmuş qaydada xəbərdar edildiyi tarixdən 20 (iyirmi) gün müddətində, hər bir halda bu Nizamnamənin 5.2-ci bəndində göstərilmiş bildirişin Cəmiyyətin icra orqanına daxilolma tarixindən 30 (otuz) gündən gec olmayaraq öz üstünlük hüququndan istifadə etmədikdə səhmləri əldə etməkdə üstünlük hüququ Cəmiyyətə keçir.

5.5. Cəmiyyət əvvəlki bənddə qeyd olunmuş müddətin bitdiyi tarixdən etibarən 30 (otuz) gün müddətində öz üstünlük hüququndan istifadə etmədikdə səhmlər üçüncü şəxsə özgəninkiləşdirilə bilər. Bu zaman satılan səhmlərin qiyməti və digər satış şərtləri səhmdarlara və ya Cəmiyyətə təklif edilən müvafiq şərtlərdən daha əlverişli olmamalıdır.

## VI. CƏMİYYƏTİN SƏHMDARLARININ HÜQUQ VƏ VƏZİFƏLƏRİ. SƏHMDARLARIN REYESTRİ

6.1. Hər adi səhm onun sahibinə- səhmdara eyni həcmdə hüquqlar verir.

6.2. Səhm, Cəmiyyətin təsis edilməsi zamanı təsisçilər tərəfindən əldə edilən səhmlər istisna olmaqla, onun tam ödənilməsi anına qədər səs hüququ vermir.

6.3. Cəmiyyətin səhmdarının aşağıdakı hüquqları vardır:

6.3.1. Qanunla və bu Nizamnamə ilə nəzərdə tutulmuş qaydada Cəmiyyətin idarə edilməsində iştirak etmək, o cümlədən şəxsən və ya səlahiyyətli nümayəndəsi vasitəsilə Səhmdarların ümumi yığıncaqlarında onun səlahiyyətinə aid olan bütün məsələlər üzrə səs hüququ ilə iştirak etmək, Cəmiyyətdə seçkili vəzifələrə seçmək və seçilmək;

6.3.2. Cəmiyyətin fəaliyyəti haqqında məlumat almaq, ildə bir dəfə onun illik hesabatı və mühasibat balansı ilə tanış olmaq;

6.3.3. Qanunvericiliklə və bu Nizamnamə ilə müəyyən edilmiş tələblərə riayət etməklə özünə məxsus olan səhmləri satmaq, bağışlamaq və ya digər şəkildə özgəninkiləşdirmək;

6.3.4. Səhmdarlar arasında bölüşdürülməsi nəzərdə tutulmuş mənfəətin bir hissəsini (dividend) ona məxsus olan səhmlərin sayına mütənasib surətdə almaq;

6.3.5. Cəmiyyət ləğv edildikdə Cəmiyyətin yerdə qalan əmlakının bir hissəsini (və ya onun pul ekvivalentini) ona məxsus olan səhmlərin sayına mütənasib surətdə almaq;

6.3.6. Səhmdarların ümumi yığıncağının protokollarının (onlardan çıxarışların) və qərarlarının, habelə Cəmiyyətin digər idarəetmə orqanlarının qərarlarının surətlərini tələb etmək və almaq;

6.3.7. Bu Nizamnamə ilə və qüvvədə olan qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqlar.

6.4. Cəmiyyətin səhmdarının aşağıdakı vəzifələri vardır:

6.4.1. Qüvvədə olan qanunvericiliklə və səhmlərin satın alınması haqqında müqavilə ilə nəzərdə tutulmuş qaydada və müddətlərdə əldə edilən səhmlərin dəyərini ödəmək;

6.4.2. Nizamnamənin tələblərinə riayət etmək və Cəmiyyətin idarəetmə orqanlarının öz səlahiyyətləri çərçivəsində qəbul etdikləri qərarlarını yerinə yetirmək;

6.4.3. Kommersiya sirrinə və ya məxfi hesab olunan məlumatlara aid edilmiş məlumatları açıqlamamaq;

6.4.4. Səhmdarların reyestrinə ona dair daxil edilmiş məlumatların dəyişilməsi barədə Cəmiyyətə və Cəmiyyətin səhmdarlarının reyestrini aparan mərkəzi depozitara 10 (on) təqvim günü ərzində yazılı bildiriş vermək;

6.4.5. Bu Nizamnamə ilə və qüvvədə olan qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri daşımaq.

6.5. Cəmiyyət dövlət qeydiyyatına alındığı tarixdən 30 (otuz) təqvim günündən gec olmayaraq səhmdarlarının reyestrinin qüvvədə olan qanunvericiliyə müvafiq olaraq aparılmasını təmin edir. Səhmdarların reyestrində qeydiyyata alınmış hər bir şəxs

(səhmdar və ya nominal saxlayıcı), hər bir qeydiyyata alınmış şəxsin adına yazılmış səhmlərin sayı və kateqoriyası haqqında məlumatlar və normativ-hüquqi aktlarla nəzərdə tutulmuş digər məlumatlar göstərilir.

6.6. Səhmdarların reyestrində qeydə alınmış şəxs Cəmiyyəti və onun səhmdarlarının reyestrini aparan mərkəzi depozitarı özü haqqında məlumatlarda dəyişiklik edilməsi barədə vaxtlı-vaxtında xəbərdar etməlidir. Özü haqqında məlumatların dəyişilməsi barədə reyestrdə qeydə alınmış şəxs xəbər vermədiyi halda Cəmiyyət və onun səhmdarlarının reyestrini aparan mərkəzi depozitar bununla bağlı səhmdara və ya üçüncü şəxslərə dəymiş zərərə görə məsuliyyət daşımır.

6.7. Səhmdarların reyestrinə qeydlərin daxil edilməsi və onların daxil edilməsindən imtina edilməsi qanunla və digər normativ-hüquqi aktlarla müəyyən edilmiş əsaslar üzrə və qaydada həyata keçirilir. Səhmdarların reyestrinə qeydin daxil edilməsindən imtinadan məhkəməyə şikayət verilə bilər.

6.8. Səhmdarın (nominal saxlayıcının) tələbi ilə Cəmiyyətin səhmdarlarının reyestrini aparan mərkəzi depozitar onun səhmlərə olan hüquqlarını səhmdarların reyestrindən çıxarışın verilməsi yolu ilə təsdiq etməlidir.

## VII. CƏMİYYƏTDƏ İDARƏETMƏ

7.1. Cəmiyyətin idarəetmə orqanları aşağıdakılardır:

7.1.1. Səhmdarların ümumi yığıncağı. (Cəmiyyətin səsli səhmlərinin hamısının bir səhmdara məxsus olduğu halda Səhmdarların ümumi yığıncağının səlahiyyətləri həmin səhmdar tərəfindən təkbaşına həyata keçirilir);

7.1.2. Müşahidə Şurası;

7.1.3. Audit Komitəsi;

7.1.4. İcraçı direktor.

## VIII. SƏHMDARLARIN ÜMUMİ YIĞINCAĞI

8.1. Cəmiyyətin ali idarəetmə orqanı Səhmdarların ümumi yığıncağıdır. İldə bir dəfə Cəmiyyət səhmdarların illik ümumi yığıncağını keçirir. İllik ümumi yığıncağından başqa keçirilən Səhmdarların ümumi yığıncaqları növbədənkənar sayılır.

8.2. Səhmdarların illik ümumi yığıncağı Cəmiyyətin illik maliyyə hesabatı tərtib edildikdən və kənar auditor yoxlamasından sonra ən geci 2 (iki) ay ərzində, lakin maliyyə ili bitdikdən sonra altı aydan gec olmayaraq keçirilməlidir. Səhmdarların illik ümumi yığıncağında Cəmiyyətin illik maliyyə hesabatının təsdiq edilməsi, mənfəətin bölüşdürülməsi (ehtiyatların yaradılması, dividendlərin ödənilməsi) haqqında məsələlər həll olunur. Öz səlahiyyətləri çərçivəsində Səhmdarların illik ümumi yığıncağı istənilən məsələyə baxa bilər.

8.3. Səhmdarların ümumi yığıncağının müstəsna səlahiyyətlərinə aşağıdakılar aiddir:

8.3.1. Cəmiyyətin Nizamnaməsinə əlavələrin və dəyişikliklərin edilməsi və ya Nizamnamənin yeni redaksiyada təsdiq edilməsi;

8.3.2. Cəmiyyətin nizamnamə kapitalının artırılması və azaldılması haqqında qərarların qəbul edilməsi;

8.3.3. Cəmiyyətin Müşahidə Şurasının üzvlərinin təyin edilməsi və səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi. Müşahidə Şurası üzvlərinin əməyinin ödənilməsi və ya mükafatlandırılması və /və ya Müşahidə Şurası üzvlərinin funksiyalarının icra edilməsi ilə bağlı çəkdikləri xərclərin əvəzinin (kompensasiyaların) ödənilməsi və bu ödənişlərin formaları və miqdarı haqqında qərarların qəbul edilməsi;

8.3.4. Cəmiyyətin İcraçı direktorunun təyin edilməsi və onun səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi, onun əməyinin ödənilməsi, mükafatlandırılması və onun üçün nəzərdə tutulmuş kompensasiyaların miqdarının təsdiq edilməsi;
8.3.5. Cəmiyyətin Audit Komitəsinin üzvlərinin təyin edilməsi və səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi. Audit Komitəsinin üzvlərinin əməyinin ödənilməsi və ya mükafatlandırılması və/və ya Audit Komitəsinin üzvlərinin funksiyalarının icra edilməsi ilə bağlı çəkdikləri xərclərin əvəzinin (kompensasiyaların) ödənilməsi və bu ödənişlərin formaları və miqdarı haqqında qərarların qəbul edilməsi;
8.3.6. Cəmiyyətin orqanlarının fəaliyyətini tənzimləyən daxili sənədlərin təsdiq (qəbul) edilməsi;
8.3.7. Cəmiyyətin illik hesabatlarının, mühasibat balansının, mənfəət və zərər haqqında hesabatın təsdiq edilməsi, habelə mənfəətin (o cümlədən dividendlərin ödənilməsi şəklində) və zərərin bölüşdürülməsi;
8.3.8. Səhmdarların ümumi yığıncağının aparılması qaydasının müəyyən edilməsi;
8.3.9. Cəmiyyət tərəfindən istiqrazların və digər emissiya qiymətli kağızların yerləşdirilməsi haqqında qərarın qəbul edilməsi;
8.3.10. Yerləşdirilmiş səhmlərin Cəmiyyət tərəfindən geri alınması haqqında qərarın qəbul edilməsi;
8.3.11. Səhmlərin xırdalanması və birləşdirilməsi haqqında qərarların qəbul edilməsi;
8.3.12. Əqdin məbləği Cəmiyyətin xalis aktivlərinin dəyərinin 25 %-dən artıq olduğu halda iri əqdin bağlanması haqqında qərarın qəbul edilməsi;
8.3.13. Aidiyyəti şəxslə bağlanması nəzərdə tutulan əqdin dəyəri Cəmiyyətin aktivlərinin 5 faiz və daha çox hissəsini təşkil etdiyi halda, həmin əqdin bağlanması haqqında qərarın qəbul edilməsi;
8.3.14. Cəmiyyətin yenidən təşkili və ləğv edilməsi haqqında qərarların qəbul edilməsi;
8.3.15. Ləğvetmə komissiyasının təyin edilməsi, aralıq və yekun ləğvetmə balanslarının təsdiq edilməsi;
8.3.16. Cəmiyyət tərəfindən holdinq şirkətlərində, maliyyə-sənaye qruplarında, kommersiya təşkilatlarının digər ittifaqlarında iştirak etməsi haqqında qərarların qəbul edilməsi;
8.3.17. Cəmiyyət tərəfindən bu Nizamnamənin 8.3.16-cı yarımbəndində nəzərdə tutulmuş haldan başqa digər təşkilatlarda iştirak etməsi haqqında qərarların qəbul edilməsi;
8.3.18. Cəmiyyətin biznes-planının və onun icrası ilə bağlı hesabatların təsdiq edilməsi;
8.3.19. Qanunvericiliklə, bu Nizamnamə ilə Səhmdarların ümumi yığıncağının səlahiyyətlərinə aid edilmiş digər məsələlər üzrə qərarların qəbul edilməsi.

8.4. Cəmiyyətin Səhmdarlarının ümumi yığıncağının müstəsna səlahiyyətlərinə aid edilmiş məsələlər həll edilmək üçün onun tərəfindən Cəmiyyətin icra orqanlarına verilə bilməz.

8.5. Səhmdarların ümumi yığıncağı, yığıncaqda səsli səhmlərin altmış faizinə malik olan səhmdarlar (onların nümayəndələri) iştirak etdikdə səlahiyyətli sayılır.

8.6. Səhmdarların ümumi yığıncağında səsvermə «bir səsli səhm – bir səs» prinsipi əsasında həyata keçirilir.

8.7. Səsverməyə qoyulmuş məsələ üzrə Səhmdarların ümumi yığıncağının qərarı yığıncaqda iştirak edən səsli səhmlərin sahibi olan səhmdarların sadə səs çoxluğu ilə qəbul edilir.

8.8. Bu Nizamnamənin 8.3.1-ci, 8.3.14-cü və 8.3.15-ci yarımbəndlərində göstərilmiş məsələlər üzrə qərarlar ümumi yığıncaqda iştirak edən səsli səhmlərin sahibi olan səhmdarların 2/3 səs çoxluğu ilə qəbul edilir.

8.9. Səhmdarların illik ümumi yığıncağı Cəmiyyətin Müşahidə Şurası tərəfindən çağırılır. Cəmiyyətin Müşahidə Şurası yığıncağın gündəliyini hazırlayır və Cəmiyyətin Səhmdarlarının illik ümumi yığıncaqlarının keçirilməsinə hazırlıq işini təşkil edir. Cəmiyyətin Müşahidə Şurası Səhmdarların illik

ümumi yığıncağının keçirilməsi tarixi və yeri, yığıncağın gündəliyi haqqında səhmdarları xəbərdar etməli, Səhmdarların illik ümumi yığıncağının müzakirəsinə çıxarılan sənədlər və məlumatlarla səhmdarların tanış olmasını təmin etməli və digər zəruri hərəkətləri yerinə yetirməlidir.

8.10. Səhmdarların illik ümumi yığıncağının keçirilməsi haqqında səhmdarların xəbərdar edilməsi yığıncağın çağırılmasına 45 (qırx beş) gün qalmış bu barədə səhmdarlara (onların səhmdarların reyestrində qeyd olunmuş ünvanlarına) yazılı bildirişin göndərilməsi yolu ilə həyata keçirilir.

8.11. Səhmdarların növbədənkənar ümumi yığıncaqları icra orqanı tərəfindən Cəmiyyətin Müşahidə Şurasının təşəbbüsü ilə və ya Audit Komitəsinin və ya səsli səhmlərin ən azı 10 %-nə malik olan səhmdarın (səhmdarların) yazılı tələbi ilə çağırılır.

8.12. Cəmiyyətin icra orqanı səhmdarların növbədənkənar ümumi yığıncağının çağırılması haqqında tələbin (təşəbbüsün) daxil olduğu gündən 3 (üç) iş günü müddətində səhmdarların ümumi yığıncağının vaxtını və yerini təyin etməli, 5 (beş) iş günü müddətində isə səhmdarların ümumi yığıncağının keçirilməsi barədə səhmdarların bu Nizamnamənin 8.10-cu bəndində nəzərdə tutulmuş qaydada xəbərdar edilməsini təmin etməlidir. Səhmdarların növbədənkənar ümumi yığıncağı onun çağırılması haqqında tələbin (təşəbbüsün) daxil olduğu tarixdən 30 (otuz) gündən tez 45 (qırx beş) gündən gec olmayaraq keçirilməlidir.

8.13. İcra orqanı tərəfindən Səhmdarların növbədənkənar ümumi yığıncağının çağırılmasından imtina edilməsindən və ya onun çağırılmasından boyun qaçırmasından məhkəməyə şikayət verilə bilər.

8.14. Əgər Müşahidə Şurası, Audit Komitəsi, səsli səhmlərin ən azı 10%-nə malik olan səhmdar (səhmdarlar) tərəfindən Səhmdarların növbədənkənar ümumi yığıncağının çağırılması haqqında tələbin (təşəbbüsün) daxil olduğu gündən 3 (üç) iş günü müddətində yığıncağın keçirilməsi haqqında qərar qəbul edilməyibsə və ya onun keçirilməsindən imtina edilibsə, bu zaman Səhmdarların növbədənkənar ümumi yığıncağı, onun çağırılması barədə tələbi (təşəbbüsü) irəli sürən şəxslər tərəfindən çağırıla bilər.

8.15. Səhmdarların ümumi yığıncağının (o cümlədən, növbədənkənar və təkrar yığıncağın) keçirilməsinə hazırlıq və onun keçirilməsi qanunvericiliklə, bu Nizamnamə ilə və Səhmdarların ümumi yığıncağının hazırlanması və keçirilməsini tənzimləyən Cəmiyyətin daxili sənədi ilə müəyyən edilmiş qaydada və müddətlərdə həyata keçirilir.

8.16. Səhmdarların ümumi yığıncağında səsli səhmlərə sahib olan bütün səhmdarlar iştirak etdikdə, yığıncaq onun çağırılması vaxtından və üsulundan asılı olmayaraq səlahiyyətli sayılır.

8.17. Yığıncağı Cəmiyyətin Müşahidə Şurasının sədri aparır. Müşahidə Şurasının sədri olmadıqda yığıncaq onun sədrini yığıncaqda iştirak edən səhmdarlar (onların nümayəndələri) sırasından seçir.

8.18. Yığıncaqda yetərsay olmadığı təqdirdə yığıncaq buraxılır. Təkrar yığıncaq səsli səhmlərin 40 %-nə sahib olan səhmdarlar həmin yığıncaqda iştirak etdiyi halda səlahiyyətli sayılır.

Təkrar çağırılan yığıncaqda yetərsay olmadığı təqdirdə yeni yığıncaq çağırılır və həmin yığıncaq səsli səhmlərin 25 %-nə sahib olan səhmdarlar onda iştirak etdiyi halda səlahiyyətli sayılır.

8.19. Səhmdarların ümumi yığıncağının qərarı yığıncaq keçirilmədən (səhmdarların gündəlikdə olan məsələlərin müzakirə edilməsi və səsə qoyulmuş məsələlər üzrə qərarların qəbul edilməsi üçün birgə iştirakı olmadan) qiyabi səsvermənin aparılması yolu ilə qəbul edilə bilər.

8.20. Qiyabi səsvermənin aparılması yolu ilə qərarların qəbul edilməsi qanuna, bu Nizamnaməyə müvafiq olaraq Səhmdarların ümumi yığıncağının hazırlanması və keçirilməsini tənzimləyən Cəmiyyətin daxili sənədi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

8.21. Səhmdarların ümumi yığıncağının protokolu yığıncaq bitdikdən sonra 3 (üç) iş günündən gec olmayaraq 2 (iki) nüsxədə tərtib olunur, yığıncaqda sədrlik edən şəxs və yığıncağın katibi tərəfindən imzalanır və möhürlənir.

Səhmdarların ümumi yığıncağının protokolunda qüvvədə olan qanunvericiliklə müəyyən edilmiş məlumatlar göstərilməlidir.

8.22. Cəmiyyətin səsli səhmlərinin hamısının bir səhmdara məxsus olduğu halda Səhmdarların ümumi yığıncağının səlahiyyətinə aid edilmiş məsələlər üzrə qərarlar həmin səhmdar tərəfindən təkbaşına qəbul edilir və yazılı şəkildə rəsmiləşdirilir. Bu zaman bu Nizamnamənin və bu Nizamnamənin 8.15-ci bəndində nəzərdə tutulmuş Cəmiyyətin daxili sənədinin Səhmdarların ümumi yığıncağının hazırlanması, çağırılması və keçirilməsi müddəti və qaydasına dair müddəaları, Səhmdarların illik ümumi yığıncağının keçirilməsi müddətinə dair müddəalar istisna olmaqla, tətbiq edilmir.

## IX. CƏMİYYƏTİN MÜŞAHİDƏ ŞURASI

9.1. Müşahidə Şurası Cəmiyyətin idarə olunmasına və fəaliyyətinə ümumi nəzarəti həyata keçirir.

9.2. Cəmiyyətin Müşahidə Şurasının səlahiyyətlərinə aşağıdakılar aiddir:

9.2.1. Cəmiyyətin fəaliyyətinin prioritet istiqamətlərinin və strategiyasının müəyyən edilməsi;

9.2.2. Səhmlər üzrə dividendlərin miqdarı və ödənilməsi qaydası barədə təkliflərin verilməsi;

9.2.3. Cəmiyyətin kənar auditorunun təyin edilməsi və onunla bağlanılacaq müqavilənin şərtlərinin təsdiqi;

9.2.4. Cəmiyyət tərəfindən nümayəndəliklərin açılması və filialların yaradılması haqqında qərarların qəbul edilməsi;

9.2.5. Təsdiqi Cəmiyyətin Səhmdarlarının ümumi yığıncağının və digər orqanlarının səlahiyyətlərinə aid edilmiş sənədlər istisna olmaqla, Cəmiyyətin fəaliyyətini tənzimləyən daxili sənədlərin, o cümlədən aşağıdakı məsələlər üzrə daxili qaydaların təsdiqi:

9.2.5.1. Cəmiyyətin fəaliyyətindən irəli gələn risklərin idarə edilməsinə dair daxili qaydalar;

9.2.5.2. Cəmiyyətin müştərilərinin şikayətlərinə baxılmasına dair daxili qaydalar;

9.2.5.3. Marja ticarətinin aparılmasına dair daxili qaydalar.

9.2.6. Səhmdarların illik ümumi yığıncağının çağırılması və onun gündəliyinin təsdiq edilməsi;

9.2.7. Aidiyyəti şəxslə bağlanması nəzərdə tutulan əqdin dəyəri Cəmiyyətin aktivlərinin balans dəyərinin 5 faizinə qədər olduğu təqdirdə həmin əqdin bağlanması haqqında qərarın qəbul edilməsi;

9.2.8. Daxili audit və risklərin idarə edilməsinə dair illik hesabatların təsdiq edilməsi;

9.2.9. Cəmiyyətin təşkilati strukturunun təsdiq edilməsi;

9.2.10. Cəmiyyətin ehtiyyat və digər fondlarından istifadə barədə qərarların verilməsi;

9.2.11. Cəmiyyətin biznes-planının icrası ilə bağlı hesabatların ilkin təsdiqi;

9.2.12. Cəmiyyətin illik balansının və hesabatlarının ilkin təsdiqi.

9.3. Cəmiyyətin Müşahidə Şurası 3 (üç) üzvdən ibarət olmaqla formalaşır. Müşahidə Şurasının üzvü qismində yalnız fiziki şəxs ola bilər. Şuranın üzvləri Cəmiyyətin Səhmdarlarının ümumi yığıncağı tərəfindən səhmdarlardan və/və ya kənar şəxslərdən

3 (üç) il müddətinə seçilir. Daha çox səs toplamış namizədlər Müşahidə Şurasının tərkibinə seçilmiş sayılır. Şuranın üzvləri növbəti müddətlərə yenidən seçilə bilərlər.

9.4. Səhmdarların ümumi yığıncağının qərarı ilə Müşahidə Şurasının istənilən üzvünün (bütün üzvlərinin) səlahiyyətlərinə vaxtından əvvəl xitam verilə bilər.

9.5. Səhmdarların ümumi yığıncağı Müşahidə Şurasının üzvləri sırasından Müşahidə Şurasının sədrini təyin edir.

9.6. Müşahidə şurasının sədri Müşahidə Şurasının işini təşkil edir, onun iclaslarını üç ayda bir dəfədən az olmayaraq çağırır və iclaslarda sədrlik edir, Səhmdarların ümumi yığıncağında sədrlik edir.

9.7. Müşahidə Şurasının sədri olmadığı təqdirdə onun səlahiyyətlərini Müşahidə Şurasının qərarı ilə Müşahidə Şurasının üzvlərindən biri həyata keçirir.

9.8. Müşahidə Şurasının iclası Müşahidə Şurasının sədrinin öz təşəbbüsü ilə, şura üzvünün, Cəmiyyətin Audit Komitəsinin, kənar auditorun, icra orqanının tələbi ilə Müşahidə şuranın sədri tərəfindən çağırılır.

9.9. Müşahidə Şurası onun iclasında üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətli sayılır.

9.10. Cəmiyyətin Müşahidə Şurasının üzvlərinin sayı 2 (iki) nəfərə qədər azaldıqda Cəmiyyət Müşahidə Şurasına yeni üzvünün seçilməsi üçün növbədənkənar Səhmdarların ümumi yığıncağını çağırmalıdır.

9.11. Müşahidə şurasının iclasında hər üzv bir səsə malik olmaqla, qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Səslərin sayı bərabər bölünərsə, Müşahidə Şurasının sədrinin səsi qərarın qəbul edilməsi və ya rədd edilməsi üçün həlledici hesab edilir.

9.12. Müşahidə Şurasının iclaslarının çağırılması və keçirilməsi qaydasına dair digər şərtlər Müşahidə Şurası haqqında əsasnamə ilə müəyyən edilir.

## X. CƏMİYYƏTİN İCRAÇI DİREKTORU

10.1. Cəmiyyətin İcraçı direktoru Cəmiyyətin təkbaşçı icra orqanıdır.
Cəmiyyətin cari fəaliyyətinə rəhbərliyi Cəmiyyətin təkbaşçı icra orqanı - Cəmiyyətin İcraçı direktoru həyata keçirir.

10.2. Cəmiyyətin İcraçı direktorunun səlahiyyət müddəti Cəmiyyətin Səhmdarlarının ümumi yığıncağı tərəfindən müəyyən edilir. İcraçı direktor öz vəzifəsinə yenidən seçilə bilər.

10.3. İcraçı direktor Cəmiyyətin səhmdarları sırasından seçilə bilər və ya İcraçı direktor vəzifəsinə zəruri biliklərə və təcrübəyə malik olan istənilən digər şəxs təyin oluna bilər.

10.4. Cəmiyyətin İcraçı direktorunun hüquqları və vəzifələri qanunla, bu Nizamnamə və Cəmiyyət ilə İcraçı direktor arasında bağlanmış müqavilə ilə müəyyən edilir. Cəmiyyət adından müqavilə İcraçı direktorun seçildiyi Səhmdarların ümumi yığıncağında sədrlik edən şəxs tərəfindən və ya Səhmdarların ümumi yığıncağının qərarı ilə buna səlahiyyət verilmiş səhmdar (onun nümayəndəsi) tərəfindən imzalanır. Bu Nizamnamənin 8.22-ci bəndində nəzərdə tutulmuş halda Cəmiyyət adından İcraçı direktoru ilə müqavilə Cəmiyyətin səsli səhmlərinin hamısının məxsus olduğu səhmdar (onun nümayəndəsi) tərəfindən imzalanır.

10.5. Səhmdarların ümumi yığıncağı İcraçı direktorun səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi haqqında qərarı istənilən vaxt qəbul edə bilər.

10.6. İcraçı direktor Cəmiyyətin cari fəaliyyətinə rəhbərliyi həyata keçirir və qanunla, bu Nizamnamə ilə və Cəmiyyətin daxili sənədləri ilə Səhmdarların ümumi yığıncağının, Müşahidə Şurasının və Audit Komitəsinin səlahiyyətlərinə aid edilmiş məsələlərdən başqa bütün digər məsələləri həll edir.

10.7. Cəmiyyətin İcraçı direktoru öz səlahiyyətlərinə aid edilmiş hüdudlarda:

10.7.1. Cəmiyyətin adından vəkalətnaməsiz fəaliyyət göstərir, Cəmiyyəti hüquqi və fiziki şəxslərlə, dövlət orqanları və təşkilatlarla, bələdiyyələrlə, beynəlxalq qurumlarla münasibətlərdə təmsil edir;

10.7.2. Cəmiyyətin maraqlarının üçüncü şəxslər qarşısında təmsil edilməsi üçün etibarnamələr verir;

10.7.3. Cəmiyyətin, onun filiallarının və nümayədəliklərinin ştat cədvəllərini təsdiq edir;

10.7.4. Cəmiyyətin işçilərinin işə qəbul edilməsi, başqa işə keçirilməsi, işdən azad edilməsi haqqında əmrləri, işçilərə həvəsləndirmə və intizam tənbehi tədbirlərini tətbiq edir, Cəmiyyətin bütün işçiləri üçün icrası məcburi olan digər əmr və sərəncamları (göstərişləri) verir;

10.7.5. Cəmiyyətin biznes-planının icrasını təmin edir və onun icrası ilə bağlı hesabatları hazırlayır;

10.7.6. Cəmiyyətin cari və perspektiv iş planlarının işlənib hazırlanmasını və yerinə yetirilməsini təşkil və təmin edir;

10.7.7. Təsdiqi Cəmiyyətin Səhmdarlarının ümumi yığıncağının və digər orqanlarının səlahiyyətlərinə aid edilmiş sənədlər istisna olmaqla, qaydaları, prosedurları və Cəmiyyətin digər daxili sənədlərini təsdiq edir;

10.7.8. Səhmdarların ümumi yığıncağının və Müşahidə Şurasının qərarlarının yerinə yetirilməsini təşkil və təmin edir;

10.7.9. Cəmiyyətin Səhmdarlarının ümumi yığıncağının və Müşahidə Şurasının baxılmasına çıxarılan məsələlər üzrə materialları, layihələri və təklifləri hazırlayır;

10.7.10. Cəmiyyətin adından əqdlər bağlayır, Cəmiyyətin əmlakı üzərində qüvvədə olan qanunvericiliklə və bu Nizamnamə ilə müəyyən edilmiş həddlərdə sərəncam verir;

10.7.11. Cəmiyyətin struktur bölmələrinin, filiallarının və nümayəndəliklərinin fəaliyyəti üzərində nəzarəti və onun qarşılıqlı əlaqələndirilməsini həyata keçirir;

10.7.12. Bank idarələrində Cəmiyyətin cari, valyuta və digər hesablarını açır;

10.7.13. Cəmiyyətin mühasibat uçotunun və hesabatının aparılmasını təşkil edir;

10.7.14. Cəmiyyətin cari fəaliyyəti ilə bağlı digər məsələləri həll edir.

10.8. İcraçı direktorun müavinləri ştat cədvəlinə müvafiq olaraq İcraçı direktor tərəfindən təyin edilir və İcraçı direktorun təsdiq etdiyi səlahiyyət bölgüsünə müvafiq olaraq fəaliyyət istiqamətlərinə rəhbərlik edirlər. İcraçı direktorun müavinləri Cəmiyyətin adından öz səlahiyyətləri çərçivəsində etibarnamə əsasında fəaliyyət göstərirlər. İcraçı direktorun yerində olmadığı, habelə öz vəzifələrini icra edə bilmədiyi digər hallarda, onun funksiyalarını İcraçı direktor tərəfindən təyin edilmiş müavin icra edir.

## XI. AUDİT KOMİTƏSİ VƏ DAXİLİ AUDİT

11.1. Cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyyətinə nəzarət və daxili nəzarət sistemlərinin qiymətləndirilməsi Audit Komitəsi və daxili audit vasitəsilə həyata keçirilir.

11.2. Audit Komitəsi və Cəmiyyətdə daxili auditi həyata keçirən şəxs (bundan sonra – "daxili auditor") müstəqil fəaliyyət göstərirlər.

11.3. Audit Komitəsinin səlahiyyətlərinə aşağıdakılar aiddir:

11.3.1. Cəmiyyətin audit siyasətini və strategiyasını müəyyən etmək;

11.3.2. Daxili audit planları təsdiq etmək və audit xidmətinin fəaliyyətinə nəzarəti həyata keçirmək;

11.3.3. Kənar auditin təyin edilməsi ilə əlaqədar Cəmiyyətin səlahiyyətli idarəetmə orqanlarına təkliflər vermək;

11.3.4. Kənar auditlə birgə işi təşkil etmək, auditin nəticə və tövsiyyələrinin həyata keçirilməsinə yardım etmək;

11.3.5. Cəmiyyətin idarəetmə orqanları, kənar auditorlar, habelə nəzarət orqanları ilə əlaqələr yaratmaq;

11.3.6. Daxili nəzarət sistemlərinin təkmilləşdirilməsinə dair Səhmdarların ümumi yığıncağına və Müşahidə Şurasına təkliflər vermək.

11.4. Cəmiyyətin Audit Komitəsi 3 (üç) üzvdən ibarətdir. Komitə üzvləri Səhmdarların ümumi yığıncağı tərəfindən 3 (üç) il müddətinə təyin edilirlər. Komitənin üzvləri növbəti müddətə yenidən seçilə bilərlər. Səhmdarların ümumi yığıncağı Komitənin üzvlərindən Komitənin sədrini təyin edir.

11.5. Audit Komitəsi onun iclasında üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətlidir. İclasların keçirilməsi qaydası Audit Komitəsi haqqında əsasnamədə müəyyən edilir.

11.6. Audit Komitəsinin qərarları iclasda iştirak edən üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Hər bir üzv bir səs hüququna malikdir, üzvlərin səsvermə zamanı bitərəf qalmasına icazə verilmir. Səslər bərabər olduqda Audit Komitəsi sədrinin səsi həlledici sayılır.

11.7. Daxili auditor yalnız Audit Komitəsinin nəzarəti altında fəaliyyət göstərir və Cəmiyyətin icra orqanı ilə qarşılıqlı surətdə Cəmiyyətdə daxili nəzarət və risklərin idarə edilməsi sistemlərinin fəaliyyətinin səmərəliliyinə fasiləsiz nəzarəti həyata keçiririr.

11.8. Daxili auditor Audit Komitəsinin təqdimatı ilə Cəmiyyətin Müşahidə Şurası tərəfindən vəzifəyə təyin edilir və vəzifədən azad olunur.

11.9. Audit Komitəsi Səhmdarların ümumi uığıncağının, daxili auditor isə Audit Komitəsinin təsdiq etdiyi əsasnamə əsasında fəaliyyət göstərir.

11.10. Daxili auditor Audit Komitəsinə hesabat verir.

## XII. CƏMİYYƏTDƏ UÇOT VƏ HESABAT. CƏMİYYƏTİN MALİYYƏ FONDLARI

12.1. Cəmiyyət vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra qalan mənfəət onun tam sərəncamındadır və müstəqil istifadə edilir.

12.2. Cəmiyyətdə onun öhdəliklərinin yerinə yetirilməsini, maliyyə sabitliyini, istehsal və sosial inkişafını mənfəət (gəlir) və digər daxilolmalar hesabına təmin etmək məqsədi ilə qanunla və Nizamnaməyə müvafiq olaraq müəyyən edilmiş qaydada məqsədli maliyyə fondlar (ehtiyatlar) yaradıla bilər.

12.3. Cəmiyyət mühasibat uçotunu aparır, qanunvericiliklə müəyyən edilmiş qaydada statistik və digər hesabatları təqdim edir.

12.4. Cəmiyyət maliyyə hesabatlarını Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq tərtib edir.

## XIII. CƏMİYYƏTİN YENİDƏN TƏŞKİLİ VƏ LƏĞVİ

13.1. Cəmiyyət Səhmdarların ümumi yığıncağında iştirak edən səsli səhmlərin sahibi olan səhmdarların 2/3 səs çoxluğu ilə qəbul edilmiş qərar əsasında yenidən təşkil və ya ləğv edilə bilər. Cəmiyyətin yenidən təşkili və ləğvinin başqa əsasları və qaydası Azərbaycan Respublikası Mülki Məcəlləsi ilə müəyyən edilir.